## Bankın buraxdığı səhmlər haqqında məlumat (növü, dövlət qeydiyyat nömrəsi, nominal dəyəri, səhmdarların hüquqları)

| | |
|---|---|
| Növü | Adi sənədsiz adlı |
| Dövlət qeydiyyat nömrəsi | AZ1003004426 |
| Nominal dəyəri | 1 AZN |
| Səhmdarların hüquqları: | |
| | Emitentin idarə edilməsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə və Emitentin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək; |
| | Qanunvericiliklə müəyyən edilmiş qaydada, Emitentin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq; |
| | Emitentin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək; |
| | Emitentin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini tələb etmək; |
| | Emitentin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək; |
| | Emitentin fəaliyyətinin təftiş komissiyası (müfəttiş) tərəfindən yoxlanılmasını tələb etmək; |
| | Emitentin xalis mənfəətindən dividend almaq; |
| | Emitentin fəaliyyətinə xitam verildikdə, onun kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Emitentin yerdə qalan əmlakının müəyyən hissəsini almaq; |
| | Azərbaycan Respublikasının qanunvericiliyində və Emitentin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlar. |